السنّة النبوية وعلومها
www.sunnah.global

# Nə (özünə və ya başqasına) zərər vermək, nə də zərərə zərərlə qarşılıq vermək olmaz, kim başqasına zərər verərsə, Allah onu zərərə uğradar, kim başqasına çətinlik törədərsə, Allah onu çətinliyə salar

Əbu Səid Əl-Xudridən (Allah ondan razı olsun) Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyi rəvayət edilir: Nə (özünə və ya başqasına) zərər vermək, nə də zərərə zərərlə qarşılıq vermək olmaz, kim başqasına zərər verərsə, Allah onu zərərə uğradar, kim başqasına çətinlik törədərsə, Allah onu çətinliyə salar.
[Şahidlərlə səhih olan] [Əd-Dəraqutni rəvayət etdi]

Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) bəyan edir ki, növündən asılı olmayaraq zərəri özündən və başqalarından uzaqlaşdırmaq vacibdir və heç kəs nə özünə, nə də başqalarına zərər verməməlidir. Heç kəs zərərə zərərlə cavab verməməlidir, qisas istisna olmaqla, heç bir halda zərər, ona müqabil zərər verməklə aradan qalxmaz. Sonra Allah rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) insanlara zərər verənlərin özlərinin zərərə uğrayacaqlarını, insanları çətinliyə salanların özlərinin çətinliyə düşəcəyini xəbər verir.

https://sunnah.global/hadeeth/az/show/4711

النجاة الخيرية
ALNAJAT CHARITY
لجنة الدعوة الإلكترونية
EDC E-Da'wah Committee